**AZƏRBAYCAN RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 530-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 6 mart tarixli 377 nömrəli, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2006-cı il 22 dekabr tarixli 499 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyun tarixli 1726 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2.2-ci yarımbənd üzrə:

1.1. 2-ci abzasda “18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğunun” sözləri “əlilliyinin” sözü ilə əvəz edilsin;
1.2. 3-cü abzasda “sağlamlıq imkanları məhdud” sözləri “əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.
2. 2.2.3-cü yarımbənd üzrə:
2.1. 2-ci abzasa “uşağı” sözündən sonra “və ya əlilliyi müəyyən edilmiş uşağını” sözləri əlavə edilsin və həmin abzasda “tərbiyə etməsi” sözləri “böyütməsi” sözü ilə əvəz edilsin;
2.2. aşağıdakı məzmunda 5-ci abzas əlavə edilsin:
“5. uşağın əlilliyinin müəyyən edilməsi barədə tibbi-sosial ekspertiza müayinəsinin nəticəsi barədə çıxarış;”.
3. 2.2.6-cı yarımbəndin 5-ci abzasında “sağlamlıq imkanlarının məhdudluğu” sözləri “əlilliyi” sözü ilə və “I və ya II dərəcə” sözləri “orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə” sözləri ilə əvəz edilsin.
4. 4.1.6-cı yarımbənd üzrə:
4.1. “I dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;
4.2. 2-ci abzasda “I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara” sözləri “Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri ilə əvəz edilsin.
5. 4.1.7-ci yarımbənd üzrə:
5.1. “sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə” sözləri ilə əvəz edilsin;
5.2. 1-ci abzasda “sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağın” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin” sözləri ilə əvəz edilsin;
5.3. 2-ci abzasda “I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara” sözləri “Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri ilə əvəz edilsin.
6. 4.1.8-ci yarımbəndin 2-ci abzasında “I dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.
7. 4.1.10-cu yarımbənddə “I və II dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

8. 6.1.2-ci yarımbənddə “və 37.3.2-ci” sözləri “, 37.3.2-ci və 37.3.2-1-ci” sözləri ilə əvəz edilsin.

9. 6.1.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.1.7-ci və 6.1.8-ci yarımbəndlər əlavə edilsin:

“6.1.7. Qanunun 9.6-cı maddəsində nəzərdə tutulmuş şəxslər hərbi qulluqçu kimi yaşa görə əmək pensiyası təyin olunduqdan sonra yenidən hərbi xidmətə qəbul edildikdə;

6.1.8. Qanunun 18.2-ci maddəsində nəzərdə tutulmuş hallarda.”.

10. 6.4-cü bənddə “qeydiyyata alındığı tarixdən sonrakı ayın 1-dən” sözləri “təqdim edildiyi tarixdən, şəhid ailə üzvlərinə münasibətdə isə Qanunun 5.1-ci maddəsinin şərti nəzərə alınaraq ailə başçısına şəhid statusunun verildiyi tarixdən hesablanmaqla” sözləri ilə əvəz edilsin.

11. 6.5-ci béndə “6.1.3-6.1.5-ci” sözlərindən sonra “və 6.1.7-ci” sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 17 fevral 2023-cü il

№ 52